# İCMA Media Kit

## 1. Assosiasiya haqqında (About Us)

- **Ad:** İş adamları Cəmiyyətinin Milli Assosiasiyası (İCMA)
- **Təsis ili:** 2022
- **Hüquqi status:** İctimai birlik
- **Missiya:** Dövlət və biznes arasında körpü yaratmaq, sahibkarların maraqlarını müdafiə etmək, beynəlxalq əməkdaşlıq və innovativ biznes mühitinə töhfə vermək.
- **Dəyərlər:** Şəffaflıq, əməkdaşlıq, inkişaf, beynəlmiləlçilik.

## 2. Əsas fəaliyyət istiqamətləri

- Dövlət qurumları ilə biznes dialoqu (görüşlər, əməkdaşlıq memorandumları)
- Komissiyalar: mebel, səhiyyə, logistika və digər sahələr üzrə işçi qrupları
- Təlimlər və seminarlar: sahibkarlıq bacarıqları, hüquqi maarifləndirmə
- Beynəlxalq əlaqələr: xarici biznes missiyaları və forumlarda iştirak

## 3. Rəhbərlik (Leadership)

- **Tural Mustafayev**
  Tural Mirəli oğlu Mustafayev 14 avqust 1984-cü ildə Şəki şəhərində anadan olub. 2001-ci ildə Şəki şəhəri Fizika-Riyaziyyat və Humanitar təmayüllü litseyini, 2005-ci ildə isə Azərbaycan Dövlət İqtisad Universitetinin Kommersiya fakültəsini bitirib.
  Əmək fəaliyyətinə 2006-cı ildə şəxsi bizneslə başlayan Tural Mustafayev, 16 fevral 2017-ci il tarixində “Marsol” MMC-ni təsis edib və bu günədək şirkətə rəhbərlik edir.
  O, eyni zamanda KOBİA yanında İctimai Şuranın üzvü, “İş adamları Cəmiyyətinin Milli Assosiasiyası” ictimai birliyinin İdarə Heyətinin sədridir. Tural Mustafayev Swiss Montreux Business School-da “Master in Strategic Management” ixtisası üzrə magistr dərəcəsinə sahibdir. Həmçinin International Science and Technology University tərəfindən fəxri doktor elmi dərəcəsi ilə təltif olunub.
- **Ruslan Quliyev**
  14 mart 1986-cı ildə Yardımlı rayonunda anadan olub. 2003-cü ildə Azərbaycan Memarlıq və İnşaat Universitetinə qəbul olub və 2007-ci ildə həmin universiteti bitirib. 2007–2008-ci illərdə Azərbaycan Respublikasının Silahlı Qüvvələrində hərbi xidmətdə olub. 2008-ci ildən “Moon Group” şirkətini təsis edib və hal-hazırda həmin şirkətdə

direktor vəzifəsində çalışır. "İş Adamları Cəmiyyətinin Milli Assosiasiyası (İCMA)"nın sədr müavinidir. Ailəlidir və iki qızı var.

- **Nəcəf Əliyev**
- **İlkin Rəcəbli**

  14 sentyabr 1987-ci ildə Qax rayonunda anadan olub. 2005–2009-cu illərdə ali təhsilini Bakı Avrasiya Universitetinin Beynəlxalq Jurnalistika fakültəsində almışdır. 2009–2011-ci illərdə Müdafiə Nazirliyində Təhqiqatçı vəzifəsində, leytenant rütbəsi ilə xidmət aparmışdır. 2011–2013-cü illərdə Xəzər TV-də ixtisası üzrə çalışmışdır. 2013–2017-ci illərdə İş Adamları Birliyində aylıq jurnalların redaktoru və sahibkarlar üzrə koordinator vəzifəsini icra etmişdir. 2018-ci ildə "Sarvagelli" şirkətini təsis etmişdir və hal-hazırda həmin şirkətdə direktor vəzifəsini icra edir. 2023-cü ildən İCMA-nın sədrinin müavinidir.

- **Abbas Orucəliyev**

  Abbas Rəşid oğlu Orucəliyev 31 dekabr 1982-ci ildə Bakı şəhərində anadan olub. 1999-cu ildə Sumqayıt şəhəri 1 saylı orta məktəbi bitirib. 2003-cü ildə Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Siyasi İdarəetmə fakültəsində bakalavr, 2005-ci ildə isə həmin fakültənin magistr pilləsini tamamlamışdır. İkinci təhsil olaraq 2022-ci ildə Sumqayıt Dövlət Universitetinin Audit ixtisası üzrə bakalavr pilləsini bitirmişdir.

  Əmək fəaliyyətinə 2002-ci ildə şəxsi biznesi ilə başlamışdır. 2008–2011-ci illərdə "Azər Holdinq", 2011–2014-cü illərdə "Azərsu" ASC, 2014–2017-ci illərdə "Access Bank" ASC-də müxtəlif vəzifələrdə çalışmışdır. 2017-ci ildə "Məsləhətçi Group" şirkətində menecer olaraq fəaliyyətə başlamış və hal-hazırda həmin şirkətin həmtəsisçisidir. Sərbəst auditor kimi Azərbaycan Auditorlar Palatasının üzvüdür.

  Ailəlidir və iki övladı var.

- **Cahid Quliyev**

  Cahid Şahmar oğlu Quliyev 31 iyul 1987-ci ildə Füzuli şəhərində anadan olub. 2005-ci ildə "Dədə Qorqud" Özəl Türk Litseyini, 2009-cu ildə isə Xəzər Universitetinin "Neft Mühəndisliyi və Menecment" fakültəsini bitirib. "Newcastle" Universitetində "Yenilənəbilən Enerji Mənbələri Mühəndisliyi" ixtisası üzrə magistr dərəcəsinə sahibdir.

  Əmək fəaliyyətinə 2011-ci ildə Azərbaycan Respublikası Energetika Nazirliyi tabeliyində Alternativ və Bərpa Olunan Enerji Agentliyində aparıcı məsləhətçi vəzifəsində başlayan Cahid Quliyev 2015-ci ildən özəl sektorda fəaliyyət göstərir. O, eyni zamanda "İş Adamları Cəmiyyətinin Milli Assosiasiyası" ictimai birliyinin idarə heyətinin üzvüdür.

- **Eldəniz Səfərov**

  **Səfərov Eldəniz Cabbar oğlu**
  02 iyun 1963-cü ildə Xanlar rayonu Çaykənd kəndində anadan olmuşdur.

1970–1980-ci illərdə Bakı şəhəri 250 nömrəli orta məktəbi bitirmişdir. 1986-cı ildə Kaliningrad Texniki İnstitutunun Texnologiya fakültəsini bitirmişdir.
1986–1991-ci illərdə SSRİ-nin REFTRANSFLOT şirkətində texnolog vəzifəsində çalışmışdır. 1993–1995-ci illərdə Türkiyədə "DERENDERİ" şirkətində direktor vəzifəsini icra etmişdir. 1995–1996-cı illərdə Bakı şəhəri, Nəsimi rayonu 39 nömrəli gastronomda müdür vəzifəsində çalışmışdır. 1997–2002-ci illərdə aviakompaniya "Samara"nın Gəncə nümayəndəsi vəzifəsində fəaliyyət göstərmişdir.
2002-ci ildən hal-hazıradək "Qlobus" MMC-nin təsisçisi və direktoru olaraq fəaliyyət göstərir. 2006–2007-ci illərdə Aviasiya Akademiyasında ikinci ixtisas almışdır.

- ## Fazil Canayev

**Canayev Fazil Zahid oğlu**
25 aprel 1980-ci ildə Ermənistan SSR-in Quqark rayonu, Arçut kəndində anadan olub. Orta təhsilini Bakı şəhərində 115 saylı məktəbdə almış, daha sonra Azərbaycan Dövlət İqtisad Universitetində "Maliyyə və Kredit" ixtisası üzrə bakalavr və magistr dərəcələrini qazanmışdır.

Əmək fəaliyyətinə 2004-cü ildə Azərbaycan Mərkəzi Bankında başlamışdır. 2007–2013-cü illərdə "Lider-M" MMC-də layihə meneceri, 2013–2015-ci illərdə isə "SUNNY Electronics" mağazalar şəbəkəsinin idarə heyətinin üzvü olmuşdur. 2015-ci ildən "Sarp Systems" MMC-nin, 2024-cü ildən isə "Smart Clinic" MMC-nin təsisçisi və direktorudur.

- ## Fizuli Bayramov

**Fizuli Bayramov** 1979-cu ildə Qazaxıstanın Çimkənt şəhərində anadan olub. 2000-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetini bitirmişdir. 2000–2001-ci illərdə Azərbaycan Silahlı Qüvvələrində hərbi xidmət keçmişdir. 2003–2005-ci illərdə İstanbul Çarşı şirkətində menecer kimi çalışmış, 2005-ci ildən isə BF Group MMC-nin təsisçisidir.

Ailəlidir, üç qızı və bir oğlu var. "İş Adamları Cəmiyyətinin Milli Assosiasiyası (ICMA)"nın idarə heyəti üzvüdür.

- ## Mehman Məmmədov
- ## Murad Adışirinli

**Adisirinli Murad Elşəgər oğlu** 14 yanvar 1985-ci ildə Şəki şəhərində anadan olub. 1990–1997-ci illərdə Şəki şəhərində 11 saylı orta məktəbi, 1997–2001-ci illərdə isə Şəki Humanitar Təmayüllü Liseyini bitirmişdir. 2001–2006-cı illərdə Milli Aviasiya Akademiyasında Beynəlxalq İqtisadi Münasibətlər ixtisası üzrə ali təhsil almışdır.

2009–2011-ci illərdə Şəki şəhəri Çeşməli kəndində icra nümayəndəsinin müavini və kiçik dövlət qulluqçusu olaraq fəaliyyət göstərmişdir. 2011–2012-ci illərdə Deka Bankın kredit departamentində çalışmışdır. 2013-cü ildən "Texnogallery" MMC-ni təsis etmiş və hal-hazırda həmin şirkətdə direktor vəzifəsini icra edir.

- ## Natiq Aydayev

**Natiq Fəxrəddin oğlu Aydayev** 1987-ci ildə Bakı şəhərində anadan olub. Orta təhsilini Bakı şəhəri 246 saylı orta məktəbdə almışdır. 2005-ci ildə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (keçmiş Dövlət Neft Akademiyası) Energetika fakültəsinə daxil olmuş və 2009-cu ildə akademiyanı fərqlənmə diplomu ilə bitirmişdir.

2005-ci ildən kommersiya fəaliyyəti ilə məşğul olmağa başlamışdır. Həmin ildə AZELM MMC-nin təsis edilməsində iştirak etmiş və müəssisədə iş fəaliyyətinə başlamışdır. 2009-cu ildən etibarən AZELM MMC-də direktor vəzifəsini icra etmişdir. 2010-cu ildə Caspian Energy Construction MMC-nin təsis edilməsində iştirak etmiş və burada fəaliyyətini davam etdirmişdir. 2016-cı ildə müəssisənin adı Caspian Energy Group MMC olaraq dəyişdirilmişdir. Bu müəssisədə müxtəlif vəzifələrdə çalışmış, direktor vəzifəsinə qədər yüksəlmişdir. Hal-hazırda həm müəssisənin təsisçilərindən biridir, həm də direktor vəzifəsini icra edir. Şirkət müxtəlif istiqamətlərdə biznes fəaliyyəti göstərir.

Ailəlidir və üç övladı var.

- ## Nəsimi Həsənov

**Nəsimi Xasİyev** 15 aprel 1975-ci ildə Qax şəhərində anadan olub. 1992-ci ildə Türkiyə Respublikası İstanbul Universitetinin İqtisadiyyat fakültəsinə qəbul olunub və 1997-ci ildə həmin universitetdən məzun olub.

1997–1999-cu illərdə Rusiya Federasiyasının Volqoqrad şəhərində "MKD Limited" LLC şirkətində çalışıb. 1999–2001-ci illərdə fərdi bizneslə məşğul olmuşdur. 2001–2009-cu illərdə Qax Rayon Təhsil Şöbəsində baş iqtisadçı vəzifəsini icra etmişdir.

2009–2017-ci illərdə Bank Respublika ASC-də kredit mütəxəssisi, filial müdiri və Kredit departamentində şöbə müdiri kimi müxtəlif vəzifələrdə çalışmışdır. 2017-ci ilin fevral ayından etibarən Kapitalbankda fəaliyyət göstərir və hal-hazırda həmin bankın yenilənmiş adı ilə Birbankda Kiçik və Orta Sahibkarlar üzrə İş Departamentinin direktoru vəzifəsini icra edir.

- ## Ramal Şəmşədli

- ## Vahid Hüseynov

**Vahid Hüseynov** 6 iyul 1978-ci ildə Naxçıvan MR, Sədərək rayonunda anadan olub. 1984–1995-ci illərdə Kimya-Biologiya təmayüllü liseydə təhsil alıb. 1995-ci ildə Bakı

Dövlət Universitetinin Hüquq fakültəsinə daxil olub və 1999-cu ildə həmin universiteti bitirib.

1999–2000-ci illərdə Azərbaycan Respublikasının Silahlı Qüvvələrində hərbi xidmətdə olmuşdur. 2012-ci ildən "Kovrolin.az" şirkətini təsis etmiş və hal-hazırda həmin şirkətdə direktor vəzifəsini icra edir. O, eyni zamanda "İş Adamları Cəmiyyətinin Milli Assosiasiyası (ICMA)"nın idarə heyətinin üzvüdür.

Ailəlidir və iki qızı, bir oğlu var.

- ## Sərkərdə Əliyev

**Sərkərdə Əliyev Sərxan oğlu**
Sahibkar, menecer, jurnalist və məsləhətçidir. 1976-cı ildə Gürcüstanda anadan olmuşdur. Jurnalistika sahəsində uzun illər fəaliyyət göstərmiş, "Reportyor" qəzetini təsis etmiş və reportyor.az xəbər portalını idarə etmişdir.

2012-ci ildən biznes sahəsində fəaliyyət göstərir; "Sirab" şirkətində rəhbər vəzifələrdə çalışmış, 2024-cü ildən isə "Əsrik" MMC-nin həmtəsisçisi və direktoru olaraq təbii bulaq suyu layihəsini bazara təqdim etmişdir. İdarəetmə, liderlik və sahibkarlıq sahəsində maarifləndirici fəaliyyət göstərir, serkerde.com bloqunda məqalələr dərc edir və sahibkarlara məsləhətçilik edir. Hazırda İCMA sədrinin müşaviri kimi sahibkarlıq mühitinin inkişafına töhfə verir.

- ## Vüqar Zifəroğlu

**Vüqar Zifəroğlu (Əliyev)**
1978-ci ildə Bakı şəhərində anadan olub. 1995-ci ildə 190 nömrəli orta məktəbi bitirib. 1995–2001-ci illərdə Bakı Dövlət Universitetində Beynəlxalq Jurnalistika ixtisası üzrə bakalavr və magistr təhsili alıb. Müxtəlif media orqanlarında çalışmış, 2001-ci ildən BDU Jurnalistika fakültəsində dərs deyir və 2017-ci ildən fakültənin dekanıdır.

2005-ci ildə namizədlik, 2017-ci ildə doktorluq dissertasiyalarını müdafiə etmiş, filologiya elmləri doktorudur. İki monoqrafiya, üç dərs vəsaiti, bir bədii roman və üç tarixi araşdırma kitabının müəllifidir.

2019-cu ildə Azərbaycan Respublikası Prezidenti tərəfindən təsis edilmiş "BDU-100" yubiley medalı ilə, 2020-ci ildə isə Azərbaycan Respublikasının Əməkdar jurnalisti fəxri adı ilə təltif olunmuşdur.

Azərbaycan Mətbuat Şurasının sədr müavini, Media İnkişaf Agentliyinin Müşahidə Şurasının üzvü və "Crossmedia.az" analitik informasiya portalının rəhbəridir.

**4. Statistika & Nəticələr (Impact)**

- **Üzvlərin sayı:** 500+
- **Əməkdaşlıq etdiyi dövlət qurumları:**
- Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi
- Kiçik və Orta Biznesin İnkişafı Agentliyi
- Dövlət Əmək Müfəttişliyi Xidməti
- Təhsildə Keyfiyyət Təminatı Agentliyi
- Peşə Təhsili üzrə Dövlət Agentliyi
- İqtisadi Zonaların İnkişafı Agentliyi
- Dövlət Vergi Xidməti
- Dövlət Reklam Agentliyi
- Dövlət Məşğulluq Agentliyi
- Biznesin İnkişafı Fondu
- Metrologiya İnsitutu
- Təhsilin İnkişafı Fondu
- **Beynəlxalq tərəfdaşlıq:** Türkiyə, Özbəkistan, Mərkəzi Asiya iş adamları assosiasiyaları
- **Son tədbirlər:** https://icma.org.az/insights/

**5. Media ilə əməkdaşlıq formatı**

- **Press-relizlər** (tədbirlər, yeni layihələr, beynəlxalq əməkdaşlıq)
- **Ekspert şərhləri** (sədr və idarə heyəti müsahibələri)
- **Analitik materiallar** (sahə hesabatları, mövqe sənədləri)
- **Tədbirlərə dəvət** (konfrans, forum, biznes missiyaları)

**6. Loqo və vizual materiallar**

- İCMA loqosu (PNG, PDF, vektor formatı) - icma logo

- Rəhbərlik fotoları (HD keyfiyyət) -
- Son tədbirlərdən fotolar
- Qısa video təqdimat

**7. Əlaqə məlumatları**

- **Ünvan:** Bakı şəh, N.Nərimanov, Ə.Rəcəbli 27A
- **Telefon:** +994 10 545 05 55
- **Email:** info@icma.org.az
- **Vebsayt:** https://icma.org.az/
- **Sosial media:** Instagram, X (Twitter), LinkedIn, Facebook